# Düşünülmüş siyasət nəticəsində müstəqillik möhkəmlənir, sosial-iqtisadi inkişafın dinamizmi qorunur

**Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası uğurla davam edir. İki proqram artıq çox müsbət yekunlarla yerinə yetirilib. Birinci Proqramın icrası ölkə regionlarında böyük dönüş yaratmışdır. Hər bir sahədə güclü inkişaf başlamışdır. İkinci proqramın icrası isə ölkəni iqtisadiyyatının neftdən asılılığını minimuma endirmiş, bütün iri infrastruktur layihələri icra edilmiş, real iqtisadiyyatın şaxələndirilməsinə nail olunmuşdur. Bu proqramların yerinə yetirilməsi sayəsində Azərbaycanın iqtisadi potensialı kifayət qədər güclənmişdir. 2004-2014-cü ildə ölkə dünyada ən sürətli templərlə inkişaf etmişdir. Belə ki, iqtisadiyyat 3,4 dəfə artmışdır. Sənaye istehsalında isə bu göstərici 2,7 dəfədir. Azərbaycan Prezidenti İlham Əliyev qazanılan uğurların səbəbi barədə deyib: "Heç bir başqa ölkədə son on il ərzində iqtisadiyyat bu qədər artmamışdır. Bunun başlıca səbəbi aparılan islahatlar, ölkəmizdə hökm sürən sabitlik, ictimai asayişdir. Əlbəttə ki, sabitlik və düşünülmüş siyasət iqtisadi sahədə inkişafa da gözəl şərait yaratmışdır. Azərbaycanda iqtisadi islahatlar siyasi islahatlarla tamamlanır. Bu iki istiqamət arasında uzlaşma vardır. Hesab edirəm ki, Azərbaycan təcrübəsi bu baxımdan başqa ölkələr üçün də maraqlı ola bilər". Regionların sosial-iqtisadi inkişafı üçüncü Dövlət Proqramının icrası da çox uğurludur. Bütün sahələrdə yeni, yüksək mərhələyə qədəm qoyulur.**

Əgər diqqət etsək görərik ki, 2003-cü ildən başlayaraq ölkəmizdə sosial-iqtisadi inkişaf sürətlənib, hər bir sahədə bu proses *dinamik xarakter alıb*. Ulu öndər Heydər Əliyevin siyasi kursunu müvafiq dövrün tələb və təkliflərinə uyğun həyata keçirən ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yüksək göstəricilərə nail olunub. Operativ aparılan müsbət xarakterli siyasi-iqtisadi islahatlar innovativ inkişafa geniş şərait yaradıb. İstehsalın dünya standartlarına cavab verməsi bazarlarda Azərbaycan məhsullarına tələbatı artırır. Nəticədə xarici ticarət əlaqələri genişlənir, ticarət dövriyyəsi ilbəil sürətlənir. Bu inkişaf dövrünü ölkənin intibah dövrü də adlandıra bilərik. Bu dövrdə Azərbaycanda sosial-iqtisadi inkişaf dayanıqlı xarakter almış, ölkə dünya iqtisadiyyatının bir parçasına çevrilmiş, beynəlxalq əmək bölgüsündə layiqli yer tutmuşdur. Azərbaycan iqtisadiyyatı innovativ inkişaf yolundadır. Bütün sahələri əhatə edən bu pozitiv proses ölkənin siyasətinə güclü təsir edir, müstəqil aparılmasına stimul verir. Enerji, ərzaq və nəqliyyat təhlükəsizliyinə nail olunması ölkə iqtisadiyyatının davamlı inkişafına, ixrac potensialının gücləndirilməsinə lazımi şərait yaradıb. İqtisadiyyatda inkişafın dinamizminin qorunması xarici ticarət siyasətinin stabil, məqsədyönlü aparılmasına da güclü təsir edən amildir. İnnovativ iqtisadiyyat, yüksək standartlara cavab verən məhsul dünya bazarlarında rəqabətdə üstünlüklərə və mövqenin möhkəmlənməsinə səbəb olan şərtlərdəndir. Dövlət xarici ticarət siyasətində real gerçəkliyə adekvatlıq xəttini təmin edir. Şaxələndirilmiş iqtisadiyyat, müasir istehsal, məhsulun beynəlxalq bazarların tələbinə cavabı xarici ticarət siyasətinin müvəffəqiyyətinə, əməkdaşlığın yeniləşməsinə imkan verən məsələdir. Beləliklə, dinamik innovativ inkişafla siyasi xəttin uğuruna zəmin yaradılır. Göründüyü kimi, uğurların təməlində düşünülmüş siyasətlə düzgün aparılan islahatlar və müasir texnologiyalı istehsal sahələrinin yaradılması dayanır. Təbii ki, bu tərəqqi, həm də dünyada baş verən sosial, iqtisadi və siyasi proseslərin araşdırılması və düzgün kursla irəliləməyin sayəsindədir.



Bu ilin yanvar-iyun aylarında Azərbaycan rezidentləri dünyanın 358 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları keçirmiş, 88 ölkəyə əmtəə ixrac edilmiş, 123 ölkədən idxal olunmuşdur. 6 ayda 10.930,1 milyon dollar məbləğində ticarət, o cümlədən 6.231,5 milyon dollarlıq ixrac və 4.698,6 milyon dollarlıq idxal əməliyyatları aparılmışdır. Əmtəə mübadiləsinin dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 4,1 faiz artmışdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə ixrac olunmuş malların dəyəri müqayisəli qiymətlərlə 4,7 faiz artmışdır. Xarici ticarətin beşdə dörd hissəsindən çoxu İtaliya, Almaniya, Rusiya, ABŞ, Türkiyə, Fransa, İsrail, Çexiya, Yaponiya, Çin, Ukrayna, Portuqaliya, İspaniya dövlətlərinin payına düşmüşdür. 1647 çeşiddə mal ixrac edilmişdir. Qeyri-neft məhsullarının 870,6 milyon dəyərində ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 16 faiz çoxdur.

1994-cü il sentyabr ayının 20-də Bakıda dünyanın 11 transmilli neft şirkətinin iştirakı ilə imzalanan XX "Əsrin müqaviləsi"nin sayəsində Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəmərləri reallaşdı. Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamağa başladı. Bu zəmində XXI əsrin müqaviləsi olan TANAP kəməri layihəsinin icrasına başlanılmışdır. İqtisadiyyatın sürətli inkişafında nəqliyyat infrastrukturunun da mühüm rolu vardır. Asiyanı Avropa ilə birləşdirəcək Bakı-Tbilisi-Qars dəmiryolunun tikintisi başa çatmaq üzrədir. Azərbaycana siyasi və iqtisadi dividendlər gətirən transmilli layihələr ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsində və hərtərəfli inkişafda mühüm rol oynayır. Dövlət başçısı Azərbaycan iqtisadiyyatının xüsusiyyətləri barədə deyib: "Azərbaycan iqtisadiyyatının xüsusiyyətləri ondan ibarətdir ki, bu, *möhkəm təməl üzərində qurulub, özünü təmin edən iqtisadiyyatdır, xarici maliyyə resurslarından asılı deyil*. Əksinə, biz indi özümüz donor kimi, həm başqa ölkələrə, eyni zamanda beynəlxalq maliyyə qurumlarına maliyyə resurslarımızı təqdim edirik. Bu da bizə əlavə mənfəət gətirir. Azərbaycan iqtisadi müstəqilliyini tam şəkildə əldə etdikdə, təbii ki, siyasi müstəqilliyi daha da gücləndir".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**